**Milli rəssamlığımızın zəngin ənənələrini öz yaradıcılığında mükəmməl şəkildə əks etdirən Sakit Məmmədov Azərbaycan təsviri sənətimizin inkişafı yolunda yorulmadan çalışan bənzərsiz fırça ustasıdır. Onun böyük ustalıq və məharətlə yaratdığı əsərlər Azərbaycan rəssamlıq məktəbinə ölkəmizin hüdudlarından kənarda da şöhrət qazandırmışdır.**



İti fəhmi, geniş fantaziyası olan tanınmış rəssam Sakit Məmmədovun sənət palitrasında dünya rəngli, insanları, xeyri, şəri ilə birgə və bütövdür. Bu mənada, sənətkarın "Adəm və Həvva" əsəri öz cazibədarlığı və fəlsəfi duyumu ilə diqqət çəkir.

Burada bir qanunauyğunluq olduğunu da unutmaq olmaz. Məlumdur ki, hər şey Adəmdən başlayır. Dünya da, insanlar da, bütöv də, zərrə də. Hələ üstəlik ilham pərisi də.

Fikrimizcə rəssamlıq sənəti yaranandan üzü bəri təsviri incəsənətin baş obrazlarından və mövzularından olan Adəm və Həvvanın sənət tarixində heç vaxt belə gənclik dövrü olmamışdır. Təbii ki, bu hələ məsələnin təsviri tərəfidir.



"Adəm və Həvva"

Rəssamın "Adəm və Həvva" tablosuna diqqətlə baxarkən qeyri-ixtiyari klassik Adəm və Həvvaların ən möhtəşəmlərini - Rafaelin təsvir etdiyi "Adəm və Həvva"nı (1508), Tisianın çəkdiyi "Günah"ı (1570), Mazaççonun "Adəm və Həvvanın cənnətdən qovulması"nı (1427-1428) xatırlayırsan.

Rafaelin Adəm və Həvvası Ədəm bağındakı alma ağacının yanındadır. Ağaca sarmaşmış ilan-şeytan da onlarla bir yerdədir. Həvva muradına çatıb, rahatdır. Adəm ilk günahın doğurduğu əndişənin - cənnətdən çıxarılacağının vahiməsi ilə dramatik bir təşviş içərisində qalıb.

Mazaççonun Adəmlə Həvvası artıq ağlar bir əhvalda cənnət qapısında yer aqibətlərinə doğru yola çıxıblar. Tisianın Adəm və Həvvası isə sevgi duyğusunun həzzi məqamına çatıb. Həvvaya almanı İblis-ilan deyil, ağacdakı balaca mələk verir və s.

Etiraf etmək lazımdır ki, Sakit Məmmədovun Adəm və Həvvası məsələnin fəlsəfi aspektinə görə bütün Adəm və Həvvalardan fərqlidir. Onlar gənc yaşda təsvir edilib. Digər tərəfdən, rəssam Adəm və Həvva mövzularına öz klassik əlavəsini edib. Onları göbəksiz verib.

Bu haqda geniş söhbət açmağımız təsadüfi deyil. Ümumiyyətlə, Sakitin özünəməxsus yaradıcılıq cəhətləri çoxdur. Eyni mövzulara müraciət edən rəssamların əsərlərini təhlil edərkən bunu ilk baxışdanca duymaq olur. Rəssamın mövzuya baxışı digər sənətkarlardan ciddi şəkildə fərqlənir.



# RƏNGLƏR USTASI

Bunu Sakit Məmmədovun "Roma Papasının portreti" (2004), "Qorxu" (2006), "Dədə Qorqud" (2000), "Şah İsmayıl Xətai" (2002), "Yeddi gözəl" (2005) və digər əsərlərində də görmək mümkündür.

Sakit Məmmədov 1958-ci il avqustun 5-də Neftçala şəhərində anadan olub. 1974-cü ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə qəbul olunub. 1978-ci ildə məktəbi fərqlənmə diplomu ilə bitirib. 1978-1980-ci illərdə ordu sıralarında xidmət edib. 1981-ci ildə Repin adına Sankt-Peterburq Rəssamlıq Akademiyasının rəngkarlıq fakültəsinə qəbul olunub. 1987-ci ildə akademiyanı fərqlənmə diplomu ilə başa vurub.



"Maraq"

Sakit Məmmədov məhsuldar yaradıcılıq yolu keçib. Qısa zaman kəsiyində bir-birindən maraqlı əsərlərlə sənətsevərlərin görüşünə gəlib, sərgiləri təşkil olunub, mükafatlar alıb.

XII Ümumdünya festivalının laureatı adına (1983), Sankt-Peterburqda (1984) təşkil olunan Gənclər sərgisində I dərəcəli diploma, bir il sonra yenə də bu şəhərdə Payız sərgisində I dərəcəli diploma layiq görülüb. İllərə fikir verərkən bir məqam diqqət çəkir. Sakit Məmmədov Sankt-Peterburqda - tələbəlik dövründə maraqlı əsərləri ilə sərgilərə fəal qoşulub. Yuxarıda 1984 və 1985-ci illərdə gerçəkləşən sərgilərdə fərqlənərək I dərəcəli diplomla mükafatlandırıldığını qeyd etdik.



"Səhnəyə hazırlıq"

Tələbəlik illərinə "əlvida!" söyləyərkən də S.Məmmədov ən yaxşı ümumittifaq diplom əsərlərinin Sankt-Peterburqda keçirilən sərgisində yüksək dəyərləndirilib.

Sonralar bu sərgi və mükafatların sayı daha da artıb. Bu sıraya Minskdə gənclər sərgisi (1989), Ərzurumda Azərbaycan rəssamlarının sərgisi (1991), Avstriyada Azərbaycan rəssamlarının sərgisi (1992), Polşa sərgisi (1993), "ART FAİR" - İstanbul Sənət Fuarı (1994), Türkiyədə fərdi sərgi (1994), İstanbulda Taksim Sənət Qalereyasında sərgi (1995), Moskva

sərgisi (1996), İsveçdə fərdi sərgi (1997), Kiyev (1998) və Berlində (1999) Azərbaycan rəssamlarının sərgisi, Avstraliyada olimpiadaya həsr olunmuş sərgi (2000), Fransada sərgilər (2000-2001), Bakı və Moskvada (2002) fərdi sərgilər, İtaliyada 4 italyan rəssamla birlikdə Mentana qalereyasında sərgi (2003), Almaniyanın Bonn şəhərində Azərbaycan rəssamlarının sərgisi (2003) və s. daxildir.

Göründüyü kimi, 2003-cü il S.Məmmədov üçün xüsusilə yaddaqalan olub. Həmin il o, ayrı-ayrı ölkələrdə 5 sərgidə iştirak edib.

Bu uğur 2004-cü ildə də davam edib. Şah İsmayil Xətainin xatirəsinə həsr olunmuş sərgidə Xətai adına qızıl medal, Hacı Zeynalabdin Tağıyevin xatirəsinə həsr edilmiş sərgidə H.Z.Tağıyev adına qızıl medal, "Opera" qalereyasının rəssamlarının sərgisi, Fransa senatının muzeyində 20 azərbaycanlı rəssamın sərgisi, YUNESKO Rəssamlar Birliyinin üzvlüyünə qəbul həmin ilin əlamətdar hadisələrindəndir.

Respublikanın əməkdar rəssamı Sakit Məmmədovun yaradıcılıq uğurları öz ifadəsini bu gün dünyanın müxtəlif muzey, qalereya və şəxsi kolleksiyalarda mükəmməl sənət kimi qərarlaşıb.

Onun məşhur rəsmləri sırasında İ.Əliyev, V.Putin, S.Dəmirəl, R.Denktaş, İ.Kərimov, N.Nazarbayev, R.Martinetti, A.Pekan, V.Şvimmer və başqalarının portretləri vardır.


"Leyla"


"Xatirə şəkli"

**Sakit Məmmədov sözün bütün mənalarında rənglərin ustasıdır. Onun rəssam təhkiyəsində danışan təkcə obrazlar, fiqurlar deyil, həm də rənglərdir. Odur ki, əsərlərindəki bütün görüntülər, fiqurlar kimi ləkələr də mənalarla yüklənib...**

● **Sevda SADIXBƏYOVA,**
***ADMİU-nun rəssamlıq fakültəsinin dekanı***

## Ədəbiyyat

1. Hər zaman müasir olan sənətkar. "Pəncərə" jurnalı - 2007 № 6
2. "Yorğun şəhərin işığı" İstanbul Asfaltı, Ömerli Köyü - 2007.
3. E.Həsənqızı. Sakitin sirli və təlatümlü rənglər dünyası "Mədəni-maarif" jurnalı - 2002 №10.
4. "Mədəniyyət" toplusu - 2008 № 1.